# Azərbaycan əsgəri öz torpağında vuruşur

## *Təəssüf ki, "Amnesty International" bunu dərk etmək istəmir*



***Azərbaycanda mövcud olan demokratik mühitin inkişafı, bu istiqamətdə yürüdülən uğurlu siyasət, xalq-dövlət vəhdəti və sürətli inkişaf bir sıra Avropa və Qərb dövlətlərini, habelə qərəzli beynəlxalq təşkilatları ciddi narahat edir. Bu qərəzli beynəlxalq təşkilatlar əsassız hesabatları və reallıqdan tam uzaq olan yalanla dolu bəyanatları ilə ölkəmizin beynəlxalq aləmdəki reytinqinə xələl gətirmək və mənfi rəy formalaşdırmaq istəyirlər.***

Zaman-zaman ermənipərəst dairələr tərəfindən maliyyələşdirilən "Human Rights Watch", "Freedom House", "Amnesty International" kimi, təşkilatlar ikili standartlardan və böhtandan əl çəkmir, ağ yalanları ilə onlara olan inamı heçə endirirlər. Təbii ki, bu cür qərəzli təşkilatlar təsadüfi hesabatlar hazırlamırlar. Onların bu məsələdə hamisi rolunu məhz güclü erməni lobbisi oynayır. Bir çox hallarda bu təşkilatların şər-böhtan xarakterli hesabatları, məhz özlərini "müxalifət", eləcə də, "insan hüquqlarının müdafiəsi" istiqamətində fəaliyyət göstərən QHT-lər adlandıran "beşinci kolon"un ötürdüyü yalan məlumatlar hesabına ictimailəşdirilir.

Son illər Ermənistan ordusunun sərhədboyu ərazilərdə törətdiyi təxribatlara, bunun nəticəsində hərbçilərin və mülki əhalinin qətlə yetirilməsinə və ağır yaralanmalarına, yaşayış məntəqələrinin dağıdılmasına göz yuman beynəlxalq təşkilatlar, deyəsən, qəflət yuxusundan oyanırlar. Bunun da səbəbi Ermənistan ordusunun sentyabrın 27- dən başlayaraq genişmiqyaslı təxribatların qarşısının Azərbaycan hərbi hissələri tərəfindən qətiyyətlə alınması və əks- hücumlar zamanı düşməni darmadağın etməsidir. Görünür, ermənipərəst dairələr "güclü Ermənistan ordusu"nun qələbəsinə hələ də inanırmışlar. Ona görə də işğalçıların ərköyünlüyünə, təxribatlarına göz yumurdular. Azərbaycan Ordusunun bir- birinin ardınca qazandığı qələbələr, işğalda olan ərazilərimizin 27 ildən sonra azad edilməsi ermənipərəst dairələr kimi, "Amnesty International" təşkilatını da yandırıb – yaxıb. Bunu təşkilatın ikrah hissi yaradan bəyanatı da təsdiqləyir.

Həmin təşkilatın rəhbərliyinə Prezident İlham Əliyevin bəzi fikirlərini çatdırmaq istərdim: "Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar".

Bu yerdə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Ermənistanın baş naziri Nikol Paşinyana verdiyi cavabı da xatırlatmaq yerinə düşərdi. Rusiya Prezidenti deyb ki, Ermənistan rəhbərliyinin Rusiyaya müttəfiqlik öhdəliklərinin icrası ilə bağlı sualı yoxdur: "Məlum olduğu kimi, Ermənistan KTMT üzvüdür və bizim bu müqavilə çərçivəsində müəyyən öhdəliklərimiz var. Çox təəssüf ki, döyüşlər hələ də davam edir. Amma döyüşlər Ermənistan ərazisində aparılmır. Öhdəliklərimizə gəldikdə, biz onları yerinə yetirmişik, yerinə yetiririk və yerinə yetirəcəyik".

Öz haqq işi uğrunda mübarizə aparan, ərazi bütövlüyünü təmin edən, öz torpaqlarında vuruşan Azərbaycan Ordusunu, dövlətimizi qınaq hədəfinə çevirən "Amnesty International" təşkilatı, nədənsə, Ermənistanın 1949-cu il Cenevrə Konvensiyası da daxil olmaqla, beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobud şəkildə pozduğunu görmək istəmir. Nə qədər kar və kor olmalısan ki, bu böyüklükdə haqsızlığı görməyəsən və eşitməyəsən. "Amnesty International" təşkilatı kimi, Ermənistan ordusunun Gəncə, Tərtər, Mingəçevir, Bərdə, Beyləqan, Ağcabədi, Xızı və azərbaycanlı mülki əhalinin sıx məskunlaşdığı digər şəhər və kəndlərimizə hücumlar edərək, münaqişənin miqyasını və coğrafiyasını açıq şəkildə genişləndirmək cəhdlərini görməmək qərəzlikdir.



Özünü insan hüquq və azadlıqlarının müdafiəçisi kimi tanıdan, əslində, bütün fəaliyyətini hüquq pozuntusunun müdafiəsinə yönəldən "Amnesty International" Ermənistanın raket zərbələri nəticəsində 27 azərbaycanlı mülki şəxsin həlak olduğunu, 141 nəfərin yaralandığını, 500-dən çox yaşayış binası və mülki obyektin dağıdıldığını nəzərə almırsa, bu təşkilatın faşizm ideologiyasının qatı tərəfdarı olan Ermənistandan heç bir fərqi yoxdur. Bu cür vacib və həssas məsələdə selektiv yanaşma insan hüquqları prizması baxmından qərəzsizlik mövqeyinin tamamilə pozulması deməkdir.

Azərbaycan və Ermənistan Klaster silahları barədə Konvensiya imzalayıblar. Ölkəmiz bu konvensiya ilə öhdəlikləri tamamilə yerinə yetirir. Lakin Ermənistan ordusunun Azərbaycana qarşı istifadə etdiyi klaster bombaları münaqişə zonasında və ondan aralıda yerləşən kənd və şəhərlərin mülki əhalisinə və infrastrukturuna xeyli zərər vurub. Beynəlxalq hüququn norma və prinsipləri Azərbaycan Silahlı Qüvvələrinin ölkəmizin ərazi bütövlüyünü bərpa etmək və mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün apardığı əməliyyatlara haqq verir. Azərbaycan Ordusu öz ərazisində müdafiə olunur və yalnız legitim hərbi obyektləri hədəf seçir. Konvensiyaya uyğun olaraq, mülki obyektlərə atəş açılmır. Təəssüf ki, şər və böhtançı kimi tanınan "Amnesty International" bunu "görmür".

Ermənistanın Azərbaycan xalqına qarşı həyata keçirdiyi təxribatçı hərbi təcavüzü dəstəkləyən dövlət və beynəlxalq təşkilatların obyektivlikdən və ümumiyyətlə, demokratiyadan danışmağa haqqı yoxdur.

***Çingiz QƏNİZADƏ,***
***Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru, hüquq müdafiəçisi***

Xalq qəzeti 2020.- 9 oktyabr.- S.10.